## Etik davranış məsələləri ilə bağlı 2020-ci il üzrə məlumat

"Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 1.9-cu hissəsində nəzərdə tutulan etik davranış məsələləri ilə bağlı təlimlərin koronavirus infeksiyasının geniş yayılması və onun törədə biləcəyi fəsadların nəticəsinin minimuma endirilməsi məqsədilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparatında yalnız onlayn qaydada vebinar şəkilində keçirilməsi mümkün olmuşdur. Bununla əlaqədar olaraq 27.11.2020-ci il tarixində nazirliyin struktur bölmələrində və strukturuna daxil olan qurumlarında qulluq keçən dövlət qulluqçuları üçün "Etik davranış qaydaları" mövzusunda vebinar təşkil edilmiş, qanunun tətbiqi ilə bağlı izahlar verilmişdir.

Eyni zamanda koronavirus infeksiyasına qarşı mübarizə ilə bağlı sanitar-epidemioloji qaydalara riayət edilməklə cari ilin 17-18 sentyabr tarixlərində nazirliyin strukturuna daxil olan qurumlardan Dövlət Avtomobil Nəqliyyatı Xidmətində 15 nəfər əməkdaşının iştirakı ilə dövlət qulluqçularının etik davranış qaydaları ilə əlaqədar təlim, 14-18 sentyabr tarixlərində Dövlət Dəniz Agentliyində "Dövlət qulluqçularının etik davranışı" mövzusunda, 21-23 sentyabr tarixlərində Elektron Təhlükəsizlik Xidmətində "Dövlət qulluqçularının etik davranışı" mövzusunda təlimlər keçirilmişdir.

Təlimlər zamanı iştirakçılara "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun əsas məqsədləri, etik davranışla bağlı dövlət qulluqçularının vəzifə öhdəlikləri, bu qaydalara əməl olunmamasının hüquqi nəticələri bildirilmişdir.

Həmçinin ötən müddət ərzində nazirliyin Aparatında, həmçinin strukturuna daxil olan qurumlarda qulluq keçən dövlət qulluqçularının fəaliyyəti təhlil edilmiş, Aparat üzrə etik davranış qaydalarının pozulması ilə bağlı hər hansı hal müəyyən edilməmişdir.

**İnsan resurslarının idarə edilməsi və dövlət qulluğu şöbəsi**